# BMT-nin Ali Komissarına müraciət:

## Etnik təmizləmə törədənlər və qayıdışımıza mane olanlar məsuliyyətə cəlb edilməlidirlər

*Qərbi Azərbaycan İcması bu yaxınlarda BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Folker Türkə ünvanladığı məktubda Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə aparması nəticəsində insan hüquqlarının miqyaslı şəkildə pozulması və Ermənistanın qovulmuş azərbaycanlıların öz evlərinə qanuni şəkildə qayıtmasına mane olması barədə məlumat vermişdir.*

*AZƏRTAC xəbər verir ki, icma Ali Komissarı bu insan hüquqları pozuntuları ilə bağlı qərəzsiz və hərtərəfli araşdırma aparmağa, Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasına kömək göstərməyə, etnik təmizləmə, zorakılıq, mədəni-tarixi irsin məhv edilməsi və qovulanların təhlükəsiz geri qayıtmasına mane olanların məsuliyyətə cəlb olunması istiqamətində səylər göstərməyə çağırıb. İcma həmçinin beynəlxalq ictimaiyyətin diqqətini sözügedən insan haqları pozuntularına cəlb etmək və məsələnin BMT-nin İnsan Hüquqları Şurasının müzakirəsinə çıxarılması üçün Ali Komissarın dəstəyini xahiş edib.*

*Surəti BMT-nin Baş katibinə, BMT Baş Assambleyasının, Təhlükəsizlik Şurasının, İqtisadi və Sosial Şurasının, İnsan Hüquqları Şurasının sədrlərinə, insan hüquqları sahəsində müqavilə ilə təsis edilmiş beynəlxalq qurumların rəhbərlərinə və müvafiq xüsusi mandat sahiblərinə göndərilmiş məktubda aşağıdakılar bildirilir:*

"Ermənistandan zorla qovulmuş azərbaycanlılar adından dərhal beynəlxalq müdaxiləni tələb edən kütləvi, aktual və ciddi narahatlıq doğuran insan hüquqları problemini diqqətinizə çatdırmaq üçün Sizə müraciət edirik.

Azərbaycanlı əhalinin Ermənistandan zorla qovulması, insan ləyaqəti və bərabərlik prinsiplərinə xələl gətirməklə, beynəlxalq konvensiya və müqavilələrə zidd insan hüquqlarının çoxsaylı və kobud pozuntulara səbəb olub. Ermənistan orada yaşamış azərbaycanlılara qarşı qırğın, terror, hədə-qorxu törətməklə, əmlaklarını qanunsuz ələ keçirməklə, onları təhlükə və ya az dəyərli varlıqlar kimi qələmə verən sistemli təbliğat və insanlıqdan məhrumetmə kampaniyası aparmaqla, onların hərəkət azadlığını və resurslara çıxışını məhdudlaşdırmaqla etnik təmizləmə aparıb, Ermənistan hakimiyyət orqanları, həmçinin azərbaycanlıların qəbiristanlıqlarını, dini ocaqlarını, mədəni və tarixi abidələrini dağıdıb. Ermənistan hökuməti bunları törədib azərbaycanlıları fiziki olaraq didərgin salmaqla kifayətlənməyib, həm də onların bir etnos kimi izlərini o torpaqlardan silməyə cəhd edib.

1987-1991-ci illərdə Ermənistanın azərbaycanlılara qarşı apardığı etnik təmizləmə nəticəsində bu gün həmin ölkədə bir nəfər də olsun azərbaycanlı qalmayıb. Ermənistan qovduğu yüz minlərlə azərbaycanlının geri qayıtmaq hüququnu təmin etməkdən imtina etməklə, onların iztirablarını daha da artırır. Ermənistan dəfələrlə etdiyimiz çağırışlara rəğmən, bizimlə insan hüquqlarımız mövzusunda dialoqa başlamaqdan belə qəti şəkildə imtina edir.

Azərbaycanlıların Ermənistandan zorla qovulmaları və Ermənistanın onların tarixi vətənlərinə geri qayıtmasına imkan verməməsi aşağıda göstərildiyi kimi, çoxsaylı fundamental insan hüquqlarının kobud şəkildə pozuntusudur.

*Ayrı-seçkiliyə məruz qalmamaq hüququ*

Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyi mənfur etnik təmizləmə Ümumdünya İnsan Hüquqları Bəyannaməsində (Maddə 2) və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktda (Maddə 26) təsbit edilən ayrı-seçkiliyə məruz qalmamaq hüququnun kobud şəkildə pozulmasıdır. Bu hərəkətlər həm də müxtəlif beynəlxalq konvensiyalarda, o cümlədən "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktda və ən əsası, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyada (2 və 4-cü Maddələr) qeyd olunan öhdəliklərə tamamilə ziddir.

*Qanun qarşısında bərabərlik hüququ*

Azərbaycanlıların Ermənistandan zorla qovulması onların Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktda təsbit olunmuş qanun qarşısında bərabərlik prinsipi hüququnu kəskin şəkildə pozur. Bu pozuntu xüsusilə onların sırf etnik mənsubiyyətinə görə öz ata-baba yurdlarına qayıtmaq hüququnun inkar edilməsində özünü göstərir. Ermənistanın hərəkətləri "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın bütün şəxslərin qanun qarşısında bərabər olduğunu və ayrı-seçkilik olmadan qanunla bərabər müdafiə olunmaq hüququnu təmin edən 26-cı maddəsinə açıq şəkildə ziddir.

*Yaşamaq, azadlıq və təhlükəsizlik hüququ*

Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti, həm də Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 3-cü maddəsində, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 6 və 9-cu maddələrində, "Avropa İnsan Hüquqları Konvensiyası"nın 5-ci maddəsində və insan həyatının toxunulmazlığını, təhlükəsizlik və şəxsi azadlıq kimi fundamental dəyərləri qoruyan çoxsaylı digər beynəlxalq müqavilələrdə nəzərdə tutulduğu kimi, onların yaşamaq, azadlıq və təhlükəsizlik hüquqlarını da pozub. Azərbaycanlılar qətllərə, əsassız həbslərə məruz qalıblar. Onlar öz icmalarından, ailələrindən və dolanışıq vasitələrindən qoparılıb və nəticədə dərin emosional və psixoloji sarsıntı keçiriblər. Kütləvi qovulmanın doğurduğu zorakılıq, qəfil köçkünlük və sonra yaşanmış travmalar təməl hüquqlara ciddi xələl gətirmişdir.

*İşgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmama hüququ*

Ermənistan tərəfindən azərbaycanlılara qarşı geniş şəkildə tətbiq olunmuş işgəncə, ləyaqəti alçaldan cəza və qeyri-insani rəftar yolu ilə həyata keçirilmiş etnik təmizləmə Ümumdünya İnsan Hüquqları Bəyannaməsində (2 və 5-ci maddələr) və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktda (7 və 26-cı maddələr) nəzərdə tutulmuş ayrı-seçkiliyə yol verməmək hüququnun kobud şəkildə pozulmasıdır. Bu hərəkətlər birbaşa olaraq beynəlxalq konvensiyalar, o cümlədən "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt və ən əsası, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya (2 və 4-cü maddələr) çərçivəsində qəbul edilmiş öhdəliklərə qarşı çıxır. İşgəncə və ləyaqəti alçaldan rəftardan istifadə, həmçinin Ermənistanın da tərəf olduğu "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə" Konvensiyada əksini tapmış mütləq qadağaları pozur.

*Məcburi şəkildə yoxa çıxmadan müdafiə hüququ*

Ermənistanda yaşamış çoxlu sayda azərbaycanlının etnik təmizləmə zamanı və eləcə də onların pənah gətirdiyi Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı Ermənistanın hərbi təcavüzü nəticəsində itkin düşməsi kimi ciddi narahatlıq doğuran faktı vurğulamaq lazımdır. Ermənistan tərəfindən törədilmiş məcburi itkin düşmələr bu cür hallara məruz qalmamağa dair fundamental hüququn açıq şəkildə pozulmasıdır. Bu hüquq insan hüquqlarına dair müxtəlif beynəlxalq sənədlərdə, o cümlədən Ümumdünya İnsan Hüquqları Bəyannaməsində (Maddə 3), "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktda (Maddə 9) və "Bütün şəxslərin zorakı itkin düşmələrdən müdafiəsi üzrə Beynəlxalq Konvensiya"da təsbit edilmişdir. Ermənistan bu şəxslərin taleyi və harada olduğu barədə aydınlıq gətirməkdən, qətlə yetirdiyi azərbaycanlıların kütləvi məzarlıqlarının və digər dəfn yerlərinin dəqiq yerini açıqlamaqdan imtina edir və bununla onların ailələrinin yaşadığı ağrı və qeyri-müəyyənlik iztirabını daha da dözülməz edir. Bu zorakı itkin düşmələr məsələsinə baxılması insan hüquqlarının müdafiəsi, zərər çəkmiş ailələrə onların yaxınlarının taleyinə aydınlıq gətirmək və ədalətin təmin edilməsi üçün zəruridir.

*Vətəndaşlıq hüququ*

Azərbaycan əhalisinin Ermənistandan zorla qovulması onların Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktda təsbit olunmuş vətəndaşlıq hüququnun da kobud şəkildə pozulmasına səbəb olub. Ermənistanın hərəkətləri ölkədən qovulmuş azərbaycanlıları faktiki olaraq milli mənsubiyyətindən məhrum etmək və onları hüquqi kimlik və müdafiədən məhrum etməklə vətəndaşsızlıq vəziyyətinin ağırlaşmasına səbəb olub. Bu narahatedici xoşagəlməz vəziyyət hər kəsin vətəndaşlıq hüququ olduğunu və ondan özbaşına məhrum edilmənin yolverilməz olduğunu birmənalı şəkildə bəyan edən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 15-ci maddəsi ilə ziddiyyət təşkil edir. Ermənistanın Azərbaycan əhalisinin qayıtmasına və onların öz vətənlərində vətəndaşlıq hüquqlarından istifadəsinə icazə verməkdən israrlı şəkildə imtina etməsi "Vətəndaşsızlıq hallarının azaldılması haqqında" Konvensiya ilə üzərinə götürdüyü öhdəliklərə birbaşa ziddir.

*Effektiv hüquqi müdafiə vasitələri hüququ*

Qovulmuş azərbaycanlı əhalinin geri qayıtmaq hüququndan məhrum edilməsi onların "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktda təsbit edilmiş effektiv hüquqi müdafiə vasitələrinə malik olmaq hüququnu da açıq şəkildə pozur. Nəticədə Ermənistandan olan azərbaycanlılar məruz qaldıqları zərərə görə öz qanuni vətənlərində hüquqi müdafiə əldə edə bilmirlər. Bu, onların vəziyyətini daha da çətinləşdirir. Ermənistanın bu inkarçı mövqeyi təkcə onların "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 14-cü maddəsində təsbit edildiyi kimi ədalətli və qərəzsiz proses hüququnu pozmur, həm də Paktın və digər beynəlxalq sənədlərin müdafiə etməyə çalışdığı ədalət və hesabatlılığın əsas prinsiplərinə birbaşa ziddir. Beynəlxalq ictimaiyyətin müdaxiləsi Ermənistanın "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktdan irəli gələn öhdəliklərini yerinə yetirməsini təmin etmək, məcburi köçkün azərbaycanlı əhalinin səmərəli müdafiə vasitələrinə çıxışını təmin etmək, onların geri qayıtması və hüquqlarının bərpasını asanlaşdırmaq üçün zəruridir. Bu ağır pozuntunun aradan qaldırılması qurbanların ədalət məhkəməsinə çıxışını bərpa etmək və beynəlxalq insan hüquqları hüququ ilə təsdiq edilən insan hüquqları və hesabatlılıq prinsiplərini praktikada təsdiqləmək üçün vacibdir.

*Ailə həyatına hörmət hüququ*

Azərbaycan əhalisinin zorla qovulması nəinki böyük iztirablara səbəb olub, həm də onların Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt və çoxsaylı digər sənədlərlə qorunan prinsip olan ailə həyatı hüququnu dərindən pozub. Qovulma səbəbindən ailələrin və icmaların ayrılması Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 16-cı maddəsində və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 23(1) maddəsində tanındığı kimi, onların ailə birliyi hüququnun ağır şəkildə pozulması ilə nəticələnmişdir. Bu pozuntu, sadəcə, fiziki yerdəyişmə ilə bitmir, öz yaxınlarından və öz icmalarından qoparılan fərdlərin məruz qaldığı emosional sıxıntı və psixoloji ağrıları əhatə edir. Qayıtmaq hüququnun inkar edilməsi qohumluq əlaqələrinin kəsilməsinin səbəb olduğu ağrını davam etdirməklə bu pozuntunun nəticələrini daha da ağırlaşdırır. Ermənistanın müvafiq konvensiyalar üzrə öz öhdəliklərini yerinə yetirməsini təmin etmək, zorla qovulma nəticəsində dağılmış icmaların bərpasını asanlaşdırmaq üçün beynəlxalq ictimaiyyətin müdaxiləsi mütləqdir. İnsan hüquqlarının bu cür ciddi şəkildə pozulmasının aradan qaldırılması, zərər çəkmiş azərbaycanlı əhalinin çəkdiyi ölçüyəgəlməz əzabın yüngülləşdirilməsi və Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktda təsbit olunmuş ailə birliyinin və rifahın vacibliyini bir daha təsdiqləmək üçün vacibdir.

*Uşağın ən yaxşı mənafeyi prinsipi*

Azərbaycanlıların Ermənistandan zorla qovulması həm də "Uşaq hüquqları haqqında" Konvensiyada qeyd olunduğu kimi, uşaqların hüquqlarını kobud şəkildə pozur. Konvensiyanın 3-cü maddəsində təsbit olunmuş uşağın ən yaxşı mənafeyi prinsipi təsdiq edir ki, hökumətlərin qərarları da daxil olmaqla, bütün qərarlarda hər şeydən əvvəl uşaqların rifahı nəzərə alınmalıdır. Ermənistan hökumətinin törətdiyi məcburi köçkünlük bu prinsipi pozaraq uşaqları evlərindən, icmalarından və aid olduqları doğma mühitlərindən qoparıb, onları travma və qeyri-müəyyənliyə məruz qoyub. Ermənistanın siyasəti və hərəkətləri azərbaycanlı uşaqları sabitlikdən, təhlükəsizlikdən və əsas xidmətlərdən məhrum edib. Azərbaycanlı uşaqların təhsil, sağlamlıq və müdafiə hüquqları kobud şəkildə pozulmuşdur. Məcburi köçkünlük kontekstində azərbaycanlı uşaqların hüquqlarının Ermənistan tərəfindən pozulması onların nəinki bilavasitə rifahına xələl gətirmiş, həm də onların uzunmüddətli inkişafına mane olmuş, onları ədalətsizlik və çarəsizliyin ağır nəticələri ilə uzun müddət üz-üzə qoymuşdur.

*Təhsil və işləmək hüququ*

Azərbaycanlı əhalinin Ermənistandan qovulması onların müxtəlif beynəlxalq konvensiyalarla açıq şəkildə təmin olunduğu təhsil və işləmək hüquqlarını da əhəmiyyətli dərəcədə pozmuşdur. Zorla qovulma icmaların həyatını və strukturunu pozaraq, fərdlərin təhsilə və maraqlarına uyğun məşğulluğa çıxışına mane olan ağır nəticələrə səbəb oldu. "Uşaq hüquqları haqqında" Konvensiyanın 28-ci maddəsində və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktın 13-cü maddəsində öz əksini tapmış təhsil hüququ pozulmuşdur. Eynilə, "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktın 6-cı maddəsində və "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın 5-ci maddəsində təsbit olunmuş əmək hüququ da ciddi şəkildə əngəllənmişdir, çünki zorla qovulma azərbaycanlıları öz dolanışığından və icmalarından qoparıb, yenidən ləyaqətli işlə məşğul olmasına və cəmiyyətə töhfə verməsinə mane olub. Bu pozuntuların çoxşaxəli nəticələri məcburi köçkünlüyün hüdudlarından kənara çıxır və insan hüquqları normalarının bu cür pozulması hallarının aradan qaldırılmasının təxirəsalınmazlığını vurğulayır.

*Mülkiyyət hüququ*

Zorla qovulmuş Azərbaycan əhalisinin mülkiyyət hüquqlarının kobud şəkildə pozulmasını vurğulamaq vacibdir. Ermənistan hökuməti tərəfindən təşkil edilmiş məcburi qovulma kampaniyası təkcə fərdləri vətənlərindən məhrum etməmiş, həm də onların mülkiyyətə sahiblik və mülkiyyətdən dinc şəkildə istifadə etmək kimi fundamental hüquqlarını pozmuşdur. Bu pozuntu mülkiyyət hüququnu əsas insan hüququ kimi tanıyan Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 17-ci maddəsi ilə birbaşa ziddiyyət təşkil edir. Bundan başqa, o, Avropa İnsan Hüquqları Konvensiyasının mülkiyyət hüququnu özbaşına müdaxilədən qoruyan 1 saylı Protokolun 1-ci maddəsinə ziddir. Əmlakdan özbaşına məhrumetmə qovulmuş Azərbaycan əhalisinin çəkdiyi iztirabları artırmışdır. İnsan hüquqları pozuntularının bu aspektinə baxılması yol verilmiş haqsızlıqların aradan qaldırılması və mülkiyyət hüquqlarının bərpa olunması, o cümlədən əmlakın qaytarılmasını təmin etmək və bununla da ədaləti bərqərar etmək üçün zəruridir.

*Adekvat mənzillə təmin olunmaq hüququ*

Azərbaycan əhalisinin zorla qovulması onların "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktda təsbit edildiyi kimi münasib mənzillə təmin olunmaq kimi əsas hüququnun dərin və kobud şəkildə pozulmasıdır. Paktın 11-ci maddəsində təsbit olunmuş münasib mənzil hüququ təkcə sığınacaq təmin etməyi deyil, həm də təhlükəsizliyin, yaşayış üçün əlverişliliyin və mədəni özünəməxsusluğun təminatını əhatə edir. İnsanların evlərini zorla əllərindən almaqla, Ermənistan bu mühüm insan hüququnun təməl mahiyyətini pozmuş və bununla da zərər çəkmiş əhalini sahib olduqları evin təmin etdiyi əsas təhlükəsizlik və mənsubiyyət hissini qarət etmişdir.

*Mədəni hüquqlar*

Azərbaycanlıların Ermənistandan zorla qovulması və onların mədəni irsinin Ermənistan tərəfindən sistematik şəkildə məhv edilməsi onların mədəni hüquqlarını kobud şəkildə pozur. Bu hüquqlar bərabərlik, insan ləyaqəti və ayrı-seçkiliyə yol verilməməsi çərçivəsində mədəniyyətdən və onun müxtəlif istiqamətlərindən istifadəni təmin edən əsas insan hüquqlarını əhatə edir. Bu mədəni hüquqlara mədəni həyatda tam iştirak etmək hüququ, mədəni irsə əlçatanlıq və ondan istifadə etmək imkanı, öz mədəni kimliyini ifadə etmək azadlığı, elmi tərəqqinin bəhrələnmək imkanı və bədii yaradıcılıqdan istifadə etmək azadlığı daxildir. Bu hüquqların toxunulmazlığı çoxsaylı beynəlxalq insan hüquqları sənədlərində, o cümlədən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 27-ci maddəsində, "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktın 15-ci maddəsində, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 27-ci maddəsində, "Uşaq hüquqları haqqında" Konvensiyanın 31-ci maddəsində, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın 5-ci maddəsində, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanın 13-cü maddəsində, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın 30-cu maddəsində və "Mədəni ifadələrin müxtəlifliyinin qorunması və təşviqi haqqında" UNESCO Konvensiyasında təsdiq olunur. Mədəni hüquqların belə kəskin şəkildə pozulması azərbaycanlıların qeyri-maddi mədəni irsini təhlükə altına almış, onların adət-ənənələrinə və mədəni irsinin zəngin naxışlarına ciddi zərər vurur.

*Qayıtmaq hüququ*

Ermənistanın qovulmuş azərbaycanlıların öz evlərinə qayıtmasının qarşısını alması onların təhlükəsiz şəkildə və ləyaqətlə qayıtmaq kimi fundamental hüququnu kobud şəkildə pozur. Bu əsas hüquq Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 13-cü maddəsində və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 12-ci maddəsində açıq şəkildə tanınır. Qovulmuş azərbaycanlıların öz dədə-baba torpaqlarına qanuni şəkildə qayıtmalarının qarşısını almaqla Ermənistan onları öz doğma yurdlarında yaşamağa dair əzəli hüququndan məhrum edir. Çoxsaylı beynəlxalq konvensiyalarda öz əksini tapmış bu müddəalara açıq-aşkar etinasızlıq beynəlxalq ictimaiyyətin təcili və qətiyyətli cavabını tələb edir. Qovulmuş əhalinin geri qayıtmaq və onların vətəndə sərbəst hərəkət etmək hüququnun bərpası insan hüquqlarının və ədalətin ümumbəşəri prinsiplərində təsbit olunmuş dəyərlərə sadiqliyi əks etdirən ən vacib şərtdir.

Azərbaycan əhalisinin Ermənistandan zorla qovulması çoxsaylı fundamental insan hüquqları prinsiplərinin və beynəlxalq konvensiyaların kobud və çoxşaxəli pozulmasıdır. Qətliamlar, hədə-qorxu, nifrət təbliği ilə amansız etnik təmizləmənin həyata keçirilməsi və qayıtmaq hüququnun inkarı sonu bitməz insan iztirabları, parçalanmış icmalar və dərin ədalətsizliklərə gətirib çıxarmışdır. Ermənistanın hərəkətləri Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya və digər beynəlxalq sənədlərdə təsdiq edilmiş bərabərlik, ayrı-seçkiliyə yol verməmək və insan ləyaqəti prinsipləri ilə tamamilə ziddiyyət təşkil edir. Bu dərin pozuntuları aradan qaldırmaq, zərərçəkmiş əhalinin hüquqlarını bərpa etmək və insan hüquqlarına, ədalətə və bərabərliyə sadiqliyi təsdiqləmək üçün təcili və güclü beynəlxalq müdaxilə zəruridir.

Şübhəsiz ki, geri qayıtmaq hüququnun təmin edilməsi ədaləti bərpa etmək, sülh və barışıq əldə etmək üçün beynəlxalq səylərin mərkəzində olmalıdır.

Bu pozuntuların ağırlığını və miqyasını, həmçinin qarşıda duran vəzifələri nəzərə alaraq, hörmətli Komissarlıqdan mandatınıza və təşəkkül tapmış təcrübəyə uyğun olaraq, təcili şəkildə aşağıdakı tədbirləri görməyi xahiş edirik:

- Ermənistan tərəfindən qovulmuş azərbaycanlılara qarşı davam edən insan hüquqlarının pozulması ilə bağlı hərtərəfli və qərəzsiz araşdırma aparmaq.
- Zorla qovulmuş azərbaycanlıların öz qanuni yurdlarına təhlükəsiz və ləyaqətlə qayıtmasının təmin edilməsi mövzusunda Ermənistanla dialoqa başlamaq və bu məqsədlə Ermənistana diplomatik təzyiq göstərmək.
- Etnik təmizləmə, zorakılıq və Azərbaycan irsinin məhv edilməsinə görə məsuliyyət daşıyanların və qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə qayıdışına maneçilik törədənlərin məsuliyyətə cəlb edilməsi üçün zəruri addımları atmaq.
- Bərpaedici ədalətin imperativliyini vurğulayaraq, beynəlxalq maarifləndirməni və bu kobud hüquq pozuntuları barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasını təşviq etmək.
- Məsələni BMT-nin İnsan Hüquqları Şurasına təqdim etmək və bu məsələ ilə bağlı müzakirələri təşviq etmək.

Biz həmçinin Sizi Ermənistan tərəfindən qovulmuş azərbaycanlıların hüquqlarının pozulması, xüsusilə onların ölkədən qovulması, təhlükəsiz və ləyaqətlə öz evlərinə qayıtmaq hüququndan məhrum edilməsi hallarının aradan qaldırılması üçün informasiya mübadiləsi, hesabatların hazırlanması, ictimai vəkillik fəaliyyətinin aparılması və birgə iştirakın təşviq edilməsi ilə müvafiq xüsusi mandat sahiblərini tədbir görməyə təşviq etməyə çağırırıq.

Sizin məsələyə müdaxiləniz qovulmuş azərbaycanlıların məruz qaldıqları dərin haqsızlıqların aradan qaldırılmasında, son nəticədə onların əzəli insan hüquqlarının və ləyaqətinin bərpasında mühüm rol oynayacaqdır".

Azərbaycan. - 2023.- 12 avqust.- S.3.